# Sizin (başınızda duracaq rəhbərlər tərəfindən) inkar edəcəyiniz işlər və mənimsəmələr görəcəksiniz. "Soruşdular: Ey Allahın Rəsulu, bizə nə əmr edirsən? O Dedi: Üzərinizdə olan haqqı yerinə yetirin, öz haqqınızı isə Allahdan istəyin

İbn Məsud (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini rəvayət etmişdir: "Sizin (başınızda duracaq rəhbərlər tərəfindən) inkar edəcəyiniz işlər və mənimsəmələr görəcəksiniz. "Soruşdular: Ey Allahın Rəsulu, bizə nə əmr edirsən? O Dedi: Üzərinizdə olan haqqı yerinə yetirin, öz haqqınızı isə Allahdan istəyin."

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, müsəlmanların üzərinə hökmdarlar gələcək ki, onlar müsəlmanların ümumi sərvətini və digər dünya işlərini şəxsi maraq dairələrinə salacaqlar, onları istədikləri kimi xərcləyəcək və müsəlmanları bu haqlarından məhrum edəcəklər. Onlar dində inkar olunan əməllər edəcəklər. Səhabələr (Allah onlardan razı olsun) bu vəziyyətdə nə etməli olduqlarını soruşdular. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara bildirdi ki, həmin hökmdarların mal-dövləti mənimsəmələri, sizi onlara tabeçilikdən və itaət etmək kimi üzərinizdə olan vacibdən yayındırmamalıdır, əksinə, səbirli olun, onlara qulaq asın, itaət edin, onlarla münaqişə, ixtilaf etməyin. Allahdan haqqınızı diləyin və onların islah olunmalarını, şər və zülmlərinin dəf edilməsini istəyin.

https://sunnah.global/hadeeth/az/show/3156